# Qəbələ V Beynəlxalq Musiqi Festivalı başlanmışdır



Əl işdən soyumaz, ürək arzudan...

QƏBƏLƏ

Qəbələ rayonunun ictimai-siyasi qəzeti

1933-cü ildən nəşr olunur

№ 56-57 (7105-7106) Şənbə, 27 iyul 2013-cü il Qəzet ayda 4 dəfə çıxır Qiyməti 40 qəpik



## PREZİDENTİN İŞ GÜNDƏLİYİNDƏN

Azərbaycan Prezidenti İlham Əliyev respublikanın şimal bölgəsində—Siyəzən, Xaçmaz, Şabran rayonlarında səfərdə olmuş, bir sıra mühüm əhəmiyyətli obyektlərin açılışında iştirak etmişdir.

* * *

Prezident İlham Əliyev müqəddəs Ramazan ayı münasibətilə müsəlman ölkələrinin Azərbaycandakı səfirlərini və diplomatik nümayəndəliklərinin rəhbərlərini qəbul etmişdir.

* * *

Azərbaycan Prezidenti İlham Əliyev jurnalistlər üçün tikilmiş binada Milli Mətbuat Günü münasibətilə mənzillərin paylanması mərasimində iştirak etmişdir.

* * *

Prezident İlham Əliyev Azərbaycan mətbuat işçilərinin sosial müdafiəsinin gücləndirilməsinə dair əlavə tədbirlər haqqında sərəncam imzalamışdır.

* * *

Dövlətimizin başçısı İlham Əliyev Bibiheybət qəsəbəsindəki tikinti-quraşdırma sahəsində «Çıraq» neft layihəsinin bir hissəsi kimi inşa edilmiş «Qərbi Çıraq» platformasının tamamlanmış üst modullarında aparılan işlərlə tanış olmuşdur.

* * *

Prezident İlham Əliyev Kazanda keçirilən XXVII Ümümdünya Yay Universiadasının qaliblərini, mükafatçılarını, onların məşqçilərini və respublikanın idman mütəxəssislərini qəbul etmişdir.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev müqəddəs Ramazan ayı münasibətilə Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadənin öz iqamətgahında təşkil etdiyi iftar mərasimində iştirak etmişdir.

**Miri RƏHİMOV.**

## V Qəbələ Beynəlxalq musiqi festivalının iştirakçılarına

**Hörmətli festival iştirakçıları!**

**Əziz dostlar!**

**Sizi—Qəbələ V Beynəlxalq musiqi festivalının iştirakçılarını ürəkdən salamlayır, festivalın işinə uğurlar diləyir, hər birinizə xoş arzularımı çatdırıram.**

**Dünyada gedən ictimai-siyasi proseslərdə və sivilizasiyalararası dialoqda dünya mədəniyyətlərinin qarşılıqlı münasibətləri bütün dövrlərdə mühüm əhəmiyyət kəsb edir. Məhz mədəniyyət xadimlərinin məqsədyönlü fəaliyyəti nəticəsində bəşəriyyət mədəniyyətlərin qarşıdurması təhlükəsini dəf edərək dialoqun uğurlu nəticələrinə nail olub.**

**Beynəlxalq mədəni əlaqələr, qarşılıqlı mədəni inteqrasiya Azərbaycanın dövlətlərarası siyasətlərinin əsas prioritetlərindən biridir. Biz zəngin mədəniyyətimiz vasitəsilə ölkəmizi dünyada tanıtmağa nail olmuşuq, bu gün beynəlxalq ictimaiyyət Azərbaycan mədəniyyətinə böyük maraq göstərir. Mən də UNESCO-nun xoşməramlı səfiri kimi dünya mədəniyyəti xəzinəsini olduqca dəyərli əsərlərlə zənginləşdirmiş, xalqımızın mədəni irsinin dünyada təbliğ olunmasına, dünya mədəniyyət nümunələrinin ölkəmizdə tanıdılmasına xidmət edən, xalqlararası mədəni-mənəvi inteqrasiyanın səmərəliliyini artıran layihələri daim dəstəkləyəcəyəm.**

**Nüfuzu ildən-ilə artmaqda olan Qəbələ Beynəlxalq Musiqi Festivalının keçirilməsi ənənəvi xarakter almışdır. Bu gün Qəbələnin adı Beynəlxalq tədbirlərin təşkil olunduğu şəhərlərin adları ilə bir sırada yer alır. Dünyanın bir çox ölkəsindən çoxsaylı musiqiçilərin iştirak etdiyi bu dostluq və musiqi bayramı mədəni irsimizin zəngin ənənələrinin qorunub saxlanılması ilə yanaşı, müxtəlif ölkələri təmsil edən musiqiçilərə ünsiyyət və əməkdaşlıq üçün əlverişli şərait yaradaraq, mədəniyyətlərarası dialoqun möhkəmləndirilməsinə öz töhfəsini verir.**

**İnanıram ki, Azərbaycan və dünya bəstəkarlarının əsərləri səslənəcək bu ilki festival, füsunkar təbiətin və valehedici musiqinin gözəl vəhdəti hər birimizdə xoş təəssüratlar yaradacaqdır. Festivalda iştirak edən hər kəsə tükənməz nailiyyətlər arzulayıram.**

**Mehriban Əliyeva,**
**Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun Xoşməramlı səfiri.**

## 2013-cü ilin birinci yarısı– uğurlar, perspektivlər

### *Rayon icra hakimiyyətinin iclas salonunda 2013-cü ilin birinci yarısında Qəbələdə görülən işlər və qarşıda duran vəzifələrə həsr olunmuş geniş müşavirə keçirilmişdir*

İyul ayının 23-də rayon icra hakimiyyətinin iclas salonunda Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2013-cü ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına həsr olunmuş iclası ilə bağlı həmin dövrdə Qəbələ rayonunda görülmüş işlər barədə geniş müşavirə keçirilmişdir. Müşavirəyə idarə, müəssisə və təşkilat rəhbərləri, şəhər, qəsəbə və kənd inzibati ərazi nümayəndələri, bələdiyyə sədrləri dəvət olunmuşlar.

Müşavirədə respublika Ağsaqqallar Şurasının sədri, Milli Məclisin deputatı Fəttah Heydərov, Prezident Administrasiyasının məsul işçisi Əflatun Rufiyev iştirak etmişlər.

Tədbiri rayon icra hakimiyyətinin başçısı Səbuhi Abdullayev açmış və müşavirənin gündəliyini elan etmişdir. Sonra Səbuhi Abdullayev 2013-cü ilin birinci yarısında rayonun sosial-iqtisadi inkişafı ilə bağlı görülən işlər, cənab Prezident İlham Əliyevin Nazirlər Kabinetinin iclasındakı giriş və yekun nitqlərindən irəli gələn vəzifələr barədə geniş məruzə etmişdir **(məruzə qəzetimizin bu günkü sayında dərc olunur).**

Məruzə ətrafında rayon icra hakimiyyəti başçısının müavini, aqrar məsələlər şöbəsinin müdiri Rahib Əhmədov, rayon maliyyə idarəsinin rəisi Namiq Ağayev çıxış etmişlər **(çıxışlar ixtisarla dərc olunur).**

Müşavirədə Milli Məclisin deputatı Fəttah Heydərov çıxış edərək ötən yarım ildə istər respublikamızda, istərsə də doğma Qəbələmizdə davam edən sosial-iqtisadi inkişaf, bu inkişafın əhalinin həyat tərzinə gətirdiyi yeniliklər barədə danışmış və əldə olunan uğurların xeyli fərəh doğurduğunu qeyd etmişdir **(F. Heydərovun çıxışı dərc olunur).**

Tədbiri rayon icra hakimiyyətinin başçısı Səbuhi Abdullayev yekunlaşdırmışdır.

**Nadir ATAKİŞİYEV.**